# İQTİSADİYYAT

**UOT 330.1, 330.8**

## BAZAR MÜNASİBƏTLƏRİ ŞƏRAİTİNDƏ AİLƏ BÜDCƏSİ

**A.İ.ŞİRƏLİYEV**
***Naxçıvan Dövlət Universiteti***
***ndu@ndu.edu.az***

*Məqalədə, ümumiyyətlə, büdcənin və o cümlədən ailə büdcəsinin mahiyyəti göstərilir. Bundan başqa onun gəlirləri və xərcləri təkmilləşdirilir. Həmçinin bu işdə Azərbaycan dövlətinin gördüyü tədbirlərin həyata keçirilməsi təhlil olunur, ailə büdcəsinin normallığı üçün bir sıra tövsiyə və təkliflər verilir.*

**Açar sözlər:** büdcə, büdcənin növləri. gəlirlər. xərclər. ailə büdcəsinin artırılması yolları

Cəmiyyətdə ailə onun ilkin özəyidir. Ailə və ümumiyyətlə götürüldükdə bir və ya bir neçə şəxsdən ibarət olub müstəqil şəkildə qərarlar qəbul edən tələbatları maksimum ödəməyə çalışan və onlara üstünlük verən hər hansı bir istehsal amilinin sahibi olan. istehsalı və təkrar istehsalı təmin edən iqtisadi vahiddir. Başqa sözlə ailə ümumilikdə cəmiyyətin sosial-iqtisadi və mənəvi tələbat və ehtiyaclarını ödəməyə yönəldilmiş bir qayda olaraq dərk edilmiş qohumluq əlaqələrinə və məişətin ümumiliyinə əsaslanan şüurlu təşkil olunmuş kiçik qruplarını təmsil edir.

Həmçinin ailə və yaxud ev təsərrüfatı ailə təsərrüfatı dedikdə qohumluq dərəcəsindən asılı olaraq ümumi büdcəsi olan və bir yerdə yaşayan şəxslər qrupu və ya şəxs başa düşülür.

Hər bir cəmiyyətdə onun sosial formasından asılı olmayaraq ailə əmtəə və xidmətlərin istehsalı və bölgüsündə həmişə həlledici əsas qüvvə və amil olmuş və bu həyatı işində və istiqamətdə əbədi olaraq qalmaqdadır. O, bu gündə də ictimai quruluşun cəmiyyətin əsaslandığı başlıca və yeganə özülü hesab edilir.

Cəmiyyətin ilkin özəyini təşkil edən ailə öz üzərində iqtisadi. hüquqi ideoloji və əxlaqi münasibətlərin təsirini hiss edir. Onun faydası, gərəkliyi hər

şeydən əvvəl onun arzu olunan nemətləri. əmtəələri və xidmətləri istehsal etmək bacarığından irəli gəlir və onunla şərtlənir.

Bazar münasibətləri şəraitində ailə müəssisə (firma) və bazar ilə birlikdə mikroiqtisadiyyatı (kiçik iqtisadiyyatı) təmsil edir. istehsal amilləri sistemində əsas və başlıca mövqeyə malikdir və onun rolu mühüm olmaqla yanaşı həm də çox mürəkkəbdir. Çünki, o, öz xüsusi təsərrüfatının müxtəlif problemlərini-ailə biznesinin idarə olunması, işçi qüvvəsinin təkrar istehsalı, istehlak tələbatının ödənilməsi və əsaslı vəsait qoyuluşu üçün yığım imkanının yaradılmasını və digər məsələləri həll edir.

Həmçinin ailə iqtisadiyyatı istehsal amillərini təmin edir, onları resurs bazarına çatdırır və əvvəlində aldıqları pul vəsaitlərini əmtəə və xidmətlər əldə edilməsinə yönəldirlər.

Yeri gəlmişkən, onu da diqqətə çatdırmaq gərəkdir ki, ailə bir sıra funksiyaları – doğum, təsərrüfatın aparılması, ailə biznesinin təşkili fərdi fəaliyyətin, bazar təsərrüfatında korporativ-birgə, birləşmiş fəaliyyətinin ailə büdcəsinin formalaşdırılması və istifadəsi və s. funksiyaları yerinə yetirir. Bütün bu funksiyaların reallaşdırılması həyata keçirilməsi, onların normal olaraq təmin edilməsində ailə büdcəsi mühüm və başlıca rol oynayır, onun formalaşması, bölgüsü və istifadəsi xüsusi əhəmiyyət kəsb edir. Çünki ailə büdcəsi (büdcə fransız sözü olub siyahı, daha doğrusu, pul gəlirlərinin siyahısı deməkdir). Ailənin normal fəaliyyətinin və yaşayış səviyyəsinin təminatçısı, dayağı, müdafiəçisi və barlı vəsaitinin mənbəyidir, zəruri pul vəsaitlərinin yığımının, bölüşdürülməsinin və xərclənməsinin əsas iqtisadi alətidir.

Ölkəmizdə büdcə sistemi dövlət. Naxçıvan Muxtar Respublika və yerli büdcələri təmsil edir və burada həmçinin ailə büdcəsi də təmsil olunur.

Ailə büdcəsi də maliyyənin bir hissəsidir, maliyyə göstəriciləri birliyidir, ailənin necə deyərlər maliyyə planıdır. Dövlətlə müəssisə, təşkilat və o cümlədən ailə-ev təsərrüfatı arasında büdcə münasibətləri əmələ gəlir və qərarlaşır. Ailə büdcəsi ailənin iqtisadi durumunun, həyat səviyyəsinin göstəricisidir və ölçüsüdür. Ailə üzvlərinin tələbatlarının ödənilməsinin əsas və başlıca mənbəyi və göstəricisidir.

Bütün bunlar və xüsusilə, insan amilinin istehsalı üçün normal şərait ailə büdcəsinin formalaşdırılmasını və səmərəli istifadə edilməsini şərtləndirir və tələb edir. Müəyyən müddət ərzində ailənin gəlirlərinin və xərclərinin məcmusu olan ailə büdcəsi dövlət, müəssisə-büdcələrində olduğu kimi gəlir və xərclərin fərqindən asılı olaraq aktiv (fəal) və ya müsbət büdcə və passiv və ya kəsirli-mənfi büdcə kimi qiymətləndirilir. Gəlirləri xərclərindən artıq olan ailə büdcəsi müsbət aktiv büdcə, əksinə xərcləri gəlirlərindən çox olan büdcə isə kəsirli-mənfi büdcə kimi qiymətləndirilir. Eyni zamanda ailə büdcəsi gündəlik, həftəlik, aylıq və illik büdcə qaydası ilə formalaşdırılır və istifadə olunur.

Müxtəlif sosial qruplardan ailə büdcəsi ailənin gəlirlərinin və xərclərinin quruluşu (strukturu) barəsində məlumat verməklə yanaşı, həm də ailənin həyat

səviyyəsi haqqında tədqiqat və araşdırma aparmağa imkan verir və əlverişli məlumat mənbəyi kimi çıxış edir. Onu da xüsusilə nəzərə çatdırmaq lazımdır ki. ailələrin büdcəsi. ailənin gəlirlərinin məcmusu da müxtəliflik təşkil edir, çünki onların mənbələri eyni deyildir, daha doğrusu müxtəlifdir.

Qeyd etmək lazımdır ki, əhalinin gəlirləri arasında gəlirlərin müxtəlifliyinə, fərqlərinə baxmayaraq, ailələrin əksəriyyətində əmək haqqı və sahibkar gəliri birinci yerdə dayanır, bəzi hallarda isə eynilik təşkil edir. Ailə gəlirlərinin göstərdiyimiz bəndləri onun rifahının səviyyəsi dərəcəsini müəyyən edir. Eyni zamanda ailənin mülkiyyəti üzrə gəlirləri də xüsusi əhəmiyyət daşıyır. Əldə edilmiş əmək haqqı, sahibkar gəliri, mülkiyyətdən əldə olunan gəlirlər (renta, faiz, kirayə ödənişləri, dividentlər), dövlət transfert ödənişləri (əvəzi qaytarılmayan ödənişlər) pensiyalar, təqaüdlər, yardımlar, səhiyyə və mədəniyyət sahəsində pulsuz xidmətlər və digər mənbələrdən əldə olunmuş gəlirlər (miras və s.) ailə büdcəsini təmsil edirlər. Bütünlükdə ailə büdcəsinin gəlirləri dövlət və qeyri-dövlət müəssisə təşkilatlarından və ictimai təşkilatlardan əmək haqqı, mükafat. məzuniyyətdən daxil olan vəsait. istehsal etdiyi kənd təsərrüfatı məhsullarının satışından və digər satış mənbələrindən daxil olanlar. pensiya, müvazinət. təqaüd və başqa gəlirlərdən ibarətdir. Ailənin şəxsi sərəncamında olan gəlirlər ailənin həmin daxilolmalardan vergilər məcburi ödəmələr və könüllü olaraq ictimai təşkilatlara ödəmələr çıxıldıqdan sonra yerdə qalan məbləği nəzərdə tutur. Ailə büdcəsinin xərcləri aşağıda bəndlərdə təmsil olunurlar: sosial sığorta vergilər qida və dadlı məhsullar alınması, geyim və ayaqqabı, mənzil ödənişləri, elektrik enerjisi, mebel və məişət cihazları, sənaye malları, daşınma (nəqliyyat), asudə vaxt və səyahətlər, ictimai təşkilatlara könüllü ianə və pul köçürmələri, əmanət qoyuluşlarının artımı (azalması), qiymətli kağızların alınması və daşınmaz əmlakın alınmasına yönəldilən xərclər, valyuta alınması və satışı arasındakı fərq. köçürmə yolu ilə göndərilən pul vəsaitləri (alınma məbləği çıxılmaqla). Bütünlükdə ailə büdcəsi xərcləri ailə və onun üzvləri tərəfindən şəxsi istehlaka. istehsal fəaliyyətinə və yığıma pul vəsaitləri xərcləri aiddir.

Minimum istehlak büdcəsi (yaşayış minimumu ölçüsü) ailə üzvü böyüklərinin vəziyyətinin fəallığının uşaq və yeniyetmələri, sosial və fiziki inkişafının saxlanılmasını-mühafizəsini təmin edən mühüm maddi nemətlər və xidmətlər, habelə vergilərə və digər ödənişlərə yönəldilən xərclərin natura və dəyərcə həcmi və quruluşu göstəricisidir. Bu minimumun natural hissəsinin (yaşayış minimumu büdcəsi) dəyəri minimum istehlak səbətinə daxil olan məhsulların qeyri-ərzaq mallarının və xidmətlərin qiymətləri indeksindən asılı olaraq dəyişilir.

Yeri gəlmişkən xüsusilə qeyd etmək lazımdır ki, ailə büdcəsi ildən-ilə dövlət büdcəsinin çoxalması sayəsində çoxalır və həcmi genişlənir. Məsələn. 1991-ci ildə ölkənin dövlət büdcəsinin gəliri 2055,2 milyon manat. Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsi 21.991,9 min manat olmuşdursa indi

onlar müvafiq surətdə 11403 milyon manata və 53007,2 min manata çatmışdır. Həmçinin bu artım sayəsində dövlət büdcəsinin sosial yönümlüyü güclənmiş 2012-ci il üçün büdcədə vəsaitin 55 faizi Naxçıvan Muxtar Respublikasında isə 58 faizi sosial məsələlərə yönəldilmişdir. Halbuki. inkişaf etmiş ölkələrdə bu ancaq 30 faiz təşkil edir. Ailənin və bütünlükdə əhalinin həyat səviyyəsinə xidmət edən, xidmət göstərən ölkəmizin və o cümlədən, Naxçıvan Muxtar Respublikasının Dövlət büdcəsini sosial büdcə adlandırmaq olar.

Eyni zamanda ölkəmizdə ümumi daxil məhsul da ildən-ilə artır və dayaqlı və davamlı olduğunu sübuta yetirir. Ölkəmizdə 2011-ci ildə ümumi daxili məhsul 40 milyard manatı ötüb keçmiş. Naxçıvan Muxtar Respublikasında isə 2011-ci ilin axırında ümumi daxili məhsul artıq 2 milyard ABŞ dolları olmuşdur ki, bu da Muxtar respublika üçün astronomik rəqəm hesab edilə bilər. Belə rəqəm ailə büdcəsinin artmasına xeyli köməklik göstərmiş olur.

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin 2011-ci ildə və xüsusilə həmin ilin dekabr ayında imzaladığı sərəncamlar sayəsində pensiyalar artmış, dekabr ayının birindən isə, demək olar ki, ölkədə dövlət, nazirlik, idarə, müəssisə və təşkilatı işçilərinin əmək haqqı orta hesabla 70 faiz artırmışdır ki, bu da o deməkdir ki, ölkə əhalisinin ailə büdcəsinin gəlirləri hissəsinin məbləği də xeyli əsaslı surətdə çoxalmışdır.

Muxtar Respublikada 2011-ci ildə ailə, ev təsərrüfatlarında hər nəfərə düşən aylıq gəlir 160,3 manat təşkil etmişdir.

Əhalinin sosial vəziyyəti, maddi rifahı halını daha da yaxşılaşdırmaq üçün əsaslı tədbirlər Naxçıvan Muxtar Respublikasında da həyata keçirilmiş, diyarın iqtisadi göstəriciləri ildən-ilə dinamik olaraq artmışdır. Belə ki, Muxtar Respublikada 2011-ci ilin noyabr ayında ümumi daxili məhsul 2 mrld. manata çatmışdır ki, bu da onun 1991-ci il ilə müqayisədə 60 dəfədən çox olmuşdur.

Ölkəmizdə 2011-ci ildə minimum əmək haqqı artaraq 85 manatdan 93,5 manata çatmış, əhali gəlirləri isə 20 faiz artmışdır ki, bütün bunlar ailə büdcəsinin gəlirləri büdcə-müsbət büdcə olmasını təmin etməyə imkan vermişdir. Ölkədə yoxsulluğun, həddinin 49 faizdən 9 faiz edilməsi, son 8 ildə əhalinin o bir milyonun məşğulluğa cəlb edilməsi, təkcə 2011-ci ildə isə 100 min nəfərin daimi işlə təminatı ailə büdcəsinin gəlirlər hissəsi həcminin artırılmasına çox müsbət təsir göstərmişdir.

Naxçıvan Muxtar Respublikasında əhalinin vəsaiti hesabına tikilən yaşayış sahəsi isə 1991-ci ildə 8,2 min kvadrat metr olduğu halda 2011-ci ilin axırına 290,4 kv metr olmuş, başqa sözlə, 35,4 dəfə artmışdır. Müqayisə edilən müddətdə pərakəndə əmtəə dövriyyəsi 30,5 dəfə əhaliyə göstərilən pullu xidmətlər 46 dəfə, əhali gəlirləri 31 dəfə artmış, istiqamət götürmüşdür. Bir işçiyə hesablanmış orta aylıq əmək haqqı 1991-ci ildən 12,6 manatdan 336,5 manata gəlib çatmışdır. Bunların sayəsində Muxtar Respublikada son illərdə 2 min ailədə formalaşmış, ailələrin sayı və ailə büdcəsi 84 minə çatmışdır.

Bu diyarda 2011-ci ildə əhalinin hər 1000 nəfərinə görə 24,9 uşaq doğulmuşdur. Onu da göstərmək lazımdır ki, 2011-ci ildə dövlət büdcəsinin gəlirləri 21 mld. dollara yaxın olmuşdur. Vəsait ayrılacaqdır ki, bu da keçən ilkindən 421 mln. manat çoxdur.

Ölkəmizdə ailə büdcəsinin gəlirlərini artırmaq xərclərinə qənaət etmək. büdcəni normal formalaşdırmaq məqsədilə bir sıra məsələləri də həll etmək lazım gəlir.

Ailə büdcəsinin gəlirlərinin artırılması daim diqqət mərkəzindən saxlanılmalı, bu işdə dövlətin və xüsusilə, ailənin ev təsərrüfatlarının davamlı fəaliyyəti daim gücləndirilməlidir.

Eyni zamanda xalq istehlakı mallarının qiymətlərinin normallığı təmin edilməli, bu işdə dövlət tənzimlənməsi də öz rolunu artırmalıdır.

Bundan başqa milli pul vahidinin, manatın sabitləşdirilməsi istiqaməti davam etdirilməlidir.

Ailə büdcəsinin xərclər bəndinə qənaət etməkdən ötəri ağıllı istehlak. ağıllı tələbat prinsipi qaydası və tələbi daim gözlənilməli və onun üçün həmin məsələ diqqət mərkəzində saxlanılmalıdır.

Ailə büdcəsindən istifadə edilməsində qənaət üsulunun gücləndirilməsində, ümumiyyətlə, israfçılığa yol verilməməlidir.

Torpaq payı olan ailələrdə büdcəni artırmaq üçün ondan əldə edilən gəlirlərlə yanaşı həm də ailənin ərzaq məhsullarına olan tələbatının xeyli hissəsi əkinçilik və heyvandarlıqdan əldə edilən məhsul istehsalının səmərəliliyi daim diqqətə gətirilməlidir. Buna həm də ailə büdcəsi xərclərinin azaldılması, ona qənaət olunması imkanı və tədbiri kimi baxılmalıdır.

Eyni zamanda Azərbaycan kəndində ailə büdcəsini daha çox və yüksək həcmdə artırmaq üçün mühüm gəlirli sahə olan üzümçülüyün inkişafına hamının zəruri diqqəti artırılmalı, üzüm sahələrinin ildən-ilə genişləndirilməsinə bütün torpaq sahiblərinin əksəriyyəti qoşulmalı, bu işdə "2012-2020-ci illərlə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair" Dövlət Proqramı" haqqında Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 dekabr tarixli sərəncamının icrasına başlanılmalı və uğurla davam etdirilməlidir.

Nəhayət, əhalinin həyat səviyyəsinin yüksəlməsi də ailə büdcəsinin quruluşunun dəyişdirilməsinin xüsusi təsiri və əhəmiyyətini nəzərə alaraq bu məsələ daim gözlənilməli və davam etdirilməlidir.

## ƏDƏBİYYAT

1. İqtisadi nəzəriyyə (mikroiqtisadiyyat - 1.2). Bakı: Дашков, 2008, 700 s.
2. İqtisadi nəzəriyyə (makroiqtisadiyyat - 1.2). Bakı: Дашков, 2009, 700 s.
3. İqtisadi nəzəriyyə. Bakı: Çaşıoğlu, 1999, 600 s.
4. Xankişiyev B. Büdcə prosesi və büdcə təsnifatı. Bakı: Azərnəşr, 2002, 81 s.
5. Şirəlivev A. İqtisadi nəzəriyyə (dərs vəsaiti). Bakı: Elm, 2004, 426 s.

## СЕМЕЙНЫЙ БЮДЖЕТ В УСЛОВИЯХ РЫНОЧНЫХ ОТНОШЕНИЙ

**А.И.ШИРАЛИЕВ**

### РЕЗЮМЕ

В статье раскрывается сущность бюджета вообще, семейного бюджета в частности. Далее классифицируются доходы и расходы семейного бюджета.

В статье также рассматриваются мероприятия, осуществляемые в Азербайджане в данной области, дан ряд рекомендаций и предложений по вопросам семейного бюджета.

**Ключевые слова:** бюджет, виды бюджета, доходы, расходы, пути увеличения семейного бюджета

## FAMILY BUDGET IN THE CONDITIONS OF MARKET RELATIONS

**A.I.SHIRALIYEV**

### SUMMARY

The article investigates the essence of the budget in genera, including the family budget in particular. Besides, its income and expenditures are classified. The enterprices dealing with the mentioned sphere in Azerbaijan are analyzed and some recommendations for the qualification of the family budget are provided.

**Key words:** budget, types of budget, income, expenses, ways of increasing family budget